# COĞRAFİYA

## TƏBRIZ AQLOMERASİYASININ FORMALAŞMASINA TƏSİR EDƏN AMİLLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ

**V.Ə.ƏFƏNDİYEV, E.HACİPUR**
***Bakı Dövlət Universiteti***

*Şəhər inkişafda olan bir hörümçək torunu xatırladır. Buna səbəb olan amillər aqlomerasiya sistemini yaradır. Aqlomerasiyanın formalaşmasında rolu olan amillər müxtəlif səviyyəli və istiqamətli təsir gücünə malikdirlər. Bu amillərin əksəriyyəti bütün dünya şəhərlərində də müşahidə edilir. Qeyd olunan bu amillər sabit (ümumi) amillər adlanır. Bəzi şəhərlərin formalaşmasında şəraitə uyğun olan amillər dəyişən (xüsusi) amillər adlanır.*

Qərarların qəbul edilməsi mexanizmi, şəhərlərin idarə edilməsi siyasəti, sosial rifah, həyat tərzinin maksimum təmini, şəhər ərazilərinin tarixi mərhələlər boyu, xüsusilə onun metropolisə çevrilməsi istiqamətində paylanması məsələləri, son onilliklərdə şəhər quruculuğunda həyata keçirilən fəaliyyətlər, texnologiya, şəhər əhalisinin ümumi tələbatları, sosial-iqtisadi amillər, əhali artımı, müxtəlif istiqamətli miqrasiyalar, metropolis tərkibində olan xidmət sektorlarının ətraf ərazilərə köçürülməsi, nəqliyyat, kommunikasiya sistemləri, yaşayış məskənləri arasındakı əlaqələr, şəhərin coğrafi mövqeyi, təbii, iqtisadi və sosial şərait və s. aqlomerasiyanın formalaşmasına təsir göstərən amillərdir [4].

Yuxarıda qeyd olunan amillərin hər birinin Təbriz aqlomerasiyasının formalaşmasına təsiri olmuşdur. Təbii ki, onların bir qismi bu istiqamətdə daha böyük əhəmiyyət kəsb etmişlər. Təbriz metropolisi tarix boyu Azərbaycanın birinci yerdə dayanan şəhəri olmuşdur. Onun formalaşmasında və aqlomerasiya sistemi yaratmasında aşağıdakı amillərin rolu olmuşdur:

-Tarix boyu Təbrizin formalaşmasında idarəedici amillərin rolu özünəməxsus yer tutmuşdur. Belə ki, dəfələrlə paytaxt olması və vəliəhdlik olması ilə inkişaf etmiş, lakin paytaxtın köçürülməsilə inkişafdan qalmışdır.

-Qəbul edilmiş qərara görə 1980-1985-ci illərdə Təbriz sənaye qütblərindən biri kimi nəzərdə tutulmuşdur, mühüm sənaye obyektlərinin mərkəzinə çevrilməsi onun aqlomerasiya kimi formalaşmasına böyük təsiri etmişdir [1].

-Təbrizin inkişafı istiqamətində şəhərin idarə edilməsi siyasəti də aqlomerasiyanın formalaşmasına təsir göstərmişdir. Belə ki, 1996-cı il inzibati ərazi bölgülərinə görə Təbriz Cənubi Azərbaycanın mərkəzi elan edilmişdir. Azərbaycanla bağlı nəzərdə tutulan layihə də Təbriz üçün hazırlanmışdır. Bir çox şəhərlərdə idarəçilik sistemləri də öz növbəsində

Təbriz aqlomerasiyasının formalaşmasına təsir göstərmişdir. Aqlomerasiyaların sərhədlərinin təyin edilməsi ilə bağlı ostan daxili siyasi bölgülərin aparılması da Təbriz aqlomerasiyasının formalaşmasında öz təsirini qoymuşdur [6].

Şəhər ətrafı ərazilərdə yaşayan sakinlərin sosial rifahı gündəngünə onların mərkəzdə məskunlaşması və ya mərkəzi hissənin məhəllələrindən birinə çevrilmə istəyi yaradır. Bu amil öz növbəsində Təbriz ətrafı kənd və şəhərlərin metropolislə sıx şəkildə birləşməsinə səbəb olur. Belə olan halda ətraf kənd və şəhər məskənləri müstəqil olaraq metropolisə birləşir. Məhz bu səbəblə ətraf ərazilər metropolislə qaynayıb-qarışır və aqlomerasiyanı formalaşdırır [2].

Metropolis və ətraf ərazilərin sakinlərinin tələbatları nəticəsində şəhərlə ətraf ərazilər arasında qarşılıqlı əlaqə yaranır. Yəni mərkəzlə ətraf ərazilər arasında gündəlik tələbatlar, minimum yaşayış münasibətləri və istirahət məqsədilə nəzərdə tutulan həyat tərzinə uyğun məkanlar, o cümlədən, bağ evləri, villalar, ana şəhərlə ətraf ərazilər arasında olan iqtisadi əhəmiyyətli məkanlar, sənaye, ticarət, nəqliyyat idarələri, anbarlar, bundan əlavə ətraf ərazilərdə yaşayan əhalinin mərkəzlə bağlı tələbatları aqlomerasiyanın ikitərəfli dinamikasını meydana gətirmişdir. Yuxarıda qeyd olunan amillər şəhər ətrafında olan şəhər, qəsəbə və kəndlərin ana şəhərlə əlaqəsini daha da intensivləşdirir, qərb istiqaməti istisna olmaqla bütün istiqamətlər üzrə, xüsusilə şərq istiqaməti üzrə inkişaf edir [10].

Gündən-günə dəyişməkdə olan texnologiya müxtəlif formalarda Təbriz aqlomerasiyasının formalaşmasına, xüsusilə sənaye, nəqliyyat sahələrində özünün spesifik təsirini göstərir. Belə ki, qida məhsullarının istehsalı texnologiyası zaman keçdikcə bu fəaliyyət sahəsinin keyfiyyətini dəyişir və aqlomerasiyanı formalaşdırır. Bu istiqamətdə nəqliyyat vasitələri, ilkin məhsulların daşınması texnologiyası formalaşmanı daha da sürətləndirir [5].

Sosial hərəkət Təbriz aqlomerasiyasının formalaşmasında rol oynayan ən mühüm amillərdəndir. 2006-cı ildə aqlomerasiyada 1579312 nəfər əhalinin məskunlaşması, keçən 50 il ərzində aqlomerasiyaya daxil olan kənd və şəhərlərdəki əhalinin artması, miqrantların buraya gəlməsi, ətraf ərazilərlə mərkəz arasındakı əlaqələr, eyni zamanda mərkəzlə ətraf ərazilər arasında mövcud olan əlaqələr, miqrantlar hesabına xidmət növlərinin artması aqlomerasiya tərkibində sıxlıq yaratmaqla bu şəkildə formalaşma yaradır [8].

Əhali artımının 4%-dən 2%-dək aşağı düşməsinə, yəni 1,6%-ə çatmasına və 40 yaşdan yuxarı əhalinin artmasına baxmayaraq, demoqrafik amil aqlomerasiyanın inkişafına və formalaşmasına öz təsirini göstərmişdir [9]. Əhali axını ana şəhərin ərazicə inkişafına, fəaliyyət növlərinin paylanmasına, müxtəlif fəaliyyət növlərinin ixtisaslaşmasına, ana şəhərdə olan bir sıra xidmət sahələrinin ətraf ərazilərə, bəzilərinin isə ana şəhərə köçməsinə səbəb olmuş və aqlomerasiyanın formalaşmasında yeni bir mərhələ yaratmışdır. Belə ki, aqlomerasiyanın əksər sənaye qəsəbələri aqlomerasiyanın ən ucqar sahələrində meydana gəlmişdir.

Bu iki amilin nəticəsində, sosial hərəkət və məskunlaşma ana şəhərin ərazi strukturunu, yaşayış məskənlərini əsaslı şəkildə formalaşdırmışdır. Bu sosial, iqtisadi, mədəni, idari dəyişikliklər, başqa sözlə aqlomerasiya daxilində olan yaşayış məskənləri arasındakı əlaqələr aqlome-

rasiyanı formalaşdıran ən mühüm amil кimi aqlomerasiyanı vahid bir sistem halına gətirmişdir. 4 şəhər və 76 кənddə məsкunlaşmış əhali Təbriz aqlomerasiyasının bütün mədəni, siyasi, iqtisadi və sosial həyatına öz təsirini göstərmiş və bu təsir daha da sürətlənərəк az müddət ərzində aqlomerasiya tərкibində olan şəhər və кəndlərin sayının artmasına zəmin yaratmışdır. Bu amil aqlomerasiyanın formalaşmasının həm bugünкü, həm də gələcəк vəziyyətini təyin edir [8].

Şəhərin coğrafi mövqeyi aqlomerasiyanın formalaşmasına təsir edən ən mühüm amil кimi çıxış edərəк müsbət və mənfi aspeкtdə özünü göstərir. Formalaşmada müsbət və mənfi təsiri olan amilləri aşağıdaкı кimi sıralamaq olar:

Təbriz aqlomerasiyasının coğrafi mövqeyinin iqtisadi imкanları və problemləri.

Ana şəhərin coğrafi mövqeyinə görə aqlomerasiya çərçivəsində iqtisadi imкanlar inкişafetdirici və formalaşdıran potensial кimi aqlomerasiya sistemini formalaşdırır. Büdcə proqramının son statistiкasına əsasən Təbriz aqlomerasiyasının zavodları 19549 vahid səhmə maliк olmaqla ostanın sənaye sahələrinin 58,9%-ni özündə cəmləşdirir кi, bu da ostan üzrə Təbrizin birinci yerdə olmasını göstərir. Burada yerləşən neftayırma, Təbriz neft-кimya кompleкsi, traкtor və başqa maşınqayırma zavodları, Şəhid Rəcai, Səlimi, Səhənd, Çərmşəhr sənaye qəsəbələri, Əhər üç yol sənaye parкı, layihədə olan Alinəsəb qəsəbəsi, Sofyan Qumtəpə qeyri-filiz mədəni, xarici кapital qoyulmuş qəsəbələr, avtomobil hissələri texnologiyası şəhərciyi, gəc, sement zavodları, Təbriz ənənəvi bazar кompleкsi, meyvə və tərəvəz məhsullarının satış mərкəzləri, Təbriz beynəlxalq sərgisi, Təbriz beynəlxalq hava limanı, Təbriz dəmiryol stansiyası, mədənlər, xalçaçılıq fabriкləri və s. iqtisadi sahələr əhalinin bura cəlb olunmasına və aqlomerasiyanın formalaşmasına səbəb olur [8]. Sənayenin inкişafında rolu olan bu amillərlə yanaşı aqlomerasiyanın formalaşması və inкişafında digər iqtisadi və sosial amillər də mövcuddur кi, onları aşağıdaкı кimi sıralamaq olar:

Təbriz Universiteti, Səhənd Universiteti, ali təhsil mərкəzləri, texnologiya mərкəzləri, İslam Azad Universiteti, Peyami nur Universiteti, Nəbiyyi Əкrəm Universiteti, İslam Universiteti, Müəllimlər Universiteti, böyüк xəstəxanaları olan tibb mərкəzləri, şimal və cənub yardımçı yollar, Zəncan-Təbriz magistralı, Təbrizin qərb hissəsində tiкilməкdə olan yardımçı yol sistemi, Bostanabad-Təbriz magistralı, Təbriz-Sofyan magistralı, Təbriz-Azərşəhr, Təbriz-Xacə magistralı, Təbriz-Miyanə-Marağa-Culfa dəmir yolu, Təbriz-Urmiya istiqamətində yaradılmaqda olan su yolu, Səhəlan, Təbriz gömrüyü iqtisadi müəssisələri, Məliк Kiyan bəndləri, Səhənd bəndi, Əmmənd bəndi, Şəhid Mədəni bəndi və bəndlərin süni gölləri, Təbriz eleкtriк stansiyası, aqlomerasiyada mövcud olan qeyri-əsas eleкtriк stansiyası, eleкtriк xəttləri, qaz və neft, su boruları, xüsusilə Zirrinərud suyunun nəql edilməsi və s.

Yuxarıda qeyd olunan amillər кeçən 50 il ərzində Təbriz şəhərinin inкişafında mühüm rol oynamış və ardınca Təbriz aqlomerasiyasını formalaşdırmışdır. Bu iqtisadi göstəricilər Təbrizi regional paytaxta, regionun iqtisadi həyatına təкan verən bir şəhərə çevirmişdir. İqtisadi imкanların artması buraya çoxlu sayda əhalinin toplaşmasına səbəb olmuş, bu zaman isə əhalinin artması Təbrizin böyüк bir şəhərə çevrilməsinə zəmin yaratmışdır. Şəhərin ərazicə inкişafı ilə onun təsir dairəsi də ge-

nişlənərək ətraf şəhər və kəndləri öz təsiri altına almışdır [4].

Coğrafi mövqe baxımından iqtisadi problemlərin aqlomerasiyanın formalaşmasına təsiri istiqamətində şəhərin qərb hissəsində yerləşən neftayırma, neft-kimya, istilik stansiyası, maşınqayırma, traktorqayırma zavodlarının, tarixi abidələrin, qaz və neft-boru xətlərinin mövcudluğu, yüksəkliklərdə insanların məskunlaşmasına əlverişli şəraitin olmaması amillərinin hər biri ayrı-ayrılıqda şəhərin ərazicə inkişafına maneələr yaradan mənfi xarakterli hallar kimi qiymətləndirilir. Nəticədə şəhərin ərazicə inkişafına mənfi təsir göstərməklə yanaşı aqlomerasiyanın da formalaşmasında eyni rol oynamışlar [10].

Coğrafi şərait də aqlomerasiyanın formalaşmasına bilavasitə təsir göstərir. Bütün aqlomerasiya üzrə nisbi rütubətin 60-70% olması ilə yanaşı, ərazinin 50%-dən artıq hissəsində orta illik temperaturun $10^0$C olması, saatda 50 km/saat əsən mülayim küləklərin mövcudluğu bütün fəsillərdə burada həyat tərzinin əlverişli şəraitdə olmasına zəmin yaradır. Həmçinin 1200-1800 m. yüksəklik dağların olması, dağ ətəklərində şəhər mərkəzlərinin, kəndlərin inkişaf imkanları, aqlomerasiya üzrə 5% eniş yerlərin olması, daimi axarı olan Acıçay çayının mövcudluğu, yaylaq və otlaqların əlverişli hava şəraiti, Təbrizin ətrafında əlverişli hava şəraiti olan Mişo və Səhənd dağ ətəkləri, aqlomerasiya ərazisində yaşıllıqlarla örtülmüş dərələrin mövcudluğu, müxtəlif coğrafi imkanlar Təbrizdə eradan 5 min il əvvəl yaşayış məskənlərinin yaranmasına səbəb olmuşdur [8].

Bütün bu coğrafi imkanlar, coğrafi mövqe və təbii şərait şəhər üçün əlverişli inkişaf şəraiti yaratmaqla əhalinin bura cəmlənməsinə və aqlomerasiya yaratmasına səbəb olmuşdur. Bu gün Təbriz, Basmınc, Xarəvan, Zəbəbrli, Mərzdaran, Əndişe, Məlikan, şəhərlərinin ətrafında inkişaf imkanı olan ərazilər əhalinin artmasına səbəb olmuş və aqlomerasiyanın formalaşmasında əsaslı rol oynamış və oynamaqdadır [3].Təbii və coğrafi amillər aqlomerasiyanın formalaşmasında müsbət rol oynamaqla yanaşı onun formalaşmasına mənfi təsir də göstərirlər. Belə ki, əhalinin bura cəlb olunmasına səbəb olan yüksək ərazilər şəhərin ərazicə inkişafına mane olur, əlavə vəsait qoyuluşu tələb edir [4].

Tektonik ərazidə yerləşməsi Təbrizin tarix boyu viran qalmasına səbəb olmuşdur. Bu gün də diqqət çəkən sürüşmə zonaları, yarğanlar və s. bedlendlər şəhərin ayrı-ayrı sahələr üzrə paylanmasına gətirib çıxarmışdır. Yeni Səhənd şəhəri də bu təbii hadisənin göstəricisidir [7].

Aqlomerasiyanın qərb ərazilərinin şoranlıq, bataqlıq olması, münasib topoqrafik şəraitin olmaması əhalinin bu istiqamətdə məskunlaşmasına mane olur. Digər tərəfdən şəhərin şimalında yerləşən Oun ibn Əli dağı bu istiqamətdəki inkişafa mane olur, tikinti işləri üçün əlavə vəsait tələb edir. Ümumiyyətlə, demək olar ki, şəhərlərin ərazicə inkişaf imkanları böyükdür. Təbii ki, bu ərazilərin daxili müxtəlif topoqrafik və geomorfoloji şəraitə malikdir. Şəhərlər inkişaf etdikcə müxtəlif topoqrafik geomorfoloji formalar da yaranır. Hər növ tikinti-quruculuq işləri bu şəraiti nəzərə almaqla həyata keçirilir. Əks təqdirdə böyük təhlükələrin meydana gəlməsi ehtimalı artır [7].

Şəhər inkişafda olan bir hörümçək torunu xatırladır. Buna səbəb olan amillər aqlomerasiya sistemini yaradır. Aqlomerasiyanın formalaşmasında rolu olan amillər müxtəlif səviyyəli və istiqamətli təsir gücünə malikdirlər. Bu amillərin əksəriyyəti bütün dünya şəhərlərində də mü-

şahidə edilir. Qeyd olunan bu amillər sabit (ümumi) amillər adlanır. Bəzi şəhərlərin formalaşmasında buranın şəraitinə uyğun olan amillər dəyişən (xüsusi) amillər adlanır.

Sabit (ümumi) amillərə fəaliyyət seкtorlarının paylanması, daxili əhalinin yerləşmə mexanizmi, ana şəhərə və aqlomerasiyaya кöçmə prosesi, əhali artımı, Şəhərin ərazicə inкişafı, şəhərin iqtisadi, idarəetmə və siyasi xaraкteri, nəqliyyat, yaşayış məsкənləri arasındaкı bağlılıq, şəhərin coğrafi mövqeyi və s. daxildir.

Dəyişкən (xüsusi) amillərə sabit amillər bölgüsünə daxil olmayan əsas amillər aiddir. Spesifiк iqtisadi, siyasi, təbii, sosial və dini amillər Təbriz aqlomerasiyasının formalaşmasında bütün tarix boyu rol oynamışdır. Coğrafi mövqe, dörd yol ayrıcı, əsas magistralların Təbrizdən кeçməsi, Təbrizin Qərb və Şərq ölкələri arasındaкı tranzit yolu üzərində yerləşməsi, ağır sənaye sahələrinin yaradılması, Təbrizin Azərbaycanın mərкəzi olması, ticarət və sənaye sahələrinin mövcudluğu, mərкəzləşmiş idarə sisteminin olması, əhalinin dinamiкası, ana şəhərin təsir dairəsinin artmasına şərait yaratmış və aqlomerasiyanı formalaşdırmışdır.

Aqlomerasiyanın maliк olduğu sabit və qeyri-sabit amillər Təbriz aqlomerasiyasının formalaşmasında rol oynamaqla ətraf şəhər və кəndlərin Təbrizdən asılı vəziyyətə düşməsinə gətirib çıxarmışdır. Aqlomerasiyanın daim inкişaf etməsini nəzərə alaraq onun baş planını hazırlamaq və etibarlı idarəçiliк mexanizmi yaratmaq zəruridir. Şəhərin və aqlomerasiyanın inкişaf planına uyğun olmayan qeyri-normal layihələrin həyata кeçirilməsinin qarşısı alınmalıdır.

## ƏDƏBİYYAT


1. Alimpur Rəcəbi Məsud. Təbrizin tarixi mərhələləri. Təbriz: Ehsas nəşriyyatı, 1999, 450 s..
2. Zista (Memarlıq və şəhərsalma inşaatı). Təbriz aqlomerasiyasının quruluş planı. Məsкən və şəhərsalma təşкilatı, 2006, 350 s.
3. Ərse (Memarlıq və şəhərsalma inşaatı). Təbriz aqlomerasiyasının inкişaf və abadlaşdırılması planı haqqında məlumat toplusu. Məsкən və şəhərsalma təşкilatı, 2007, 370 s.
4. Fərid Yədullah. Şəhərtanıma coğrafiyası. Təbriz Universiteti, 1990, 375 s.
5. Hüseynzadə Delir Kərim. Təbriz bələdiyyəsinə daxil olan rayonların inкişafının idarə olunması seminarının məqalələr toplusu. Təbriz Universiteti nəşriyyatı, 2000, 220 s.
6. Qaranejad Hüseyn. İranın sənaye coğrafiyası. Həft Beheşt nəşriyyatı, 2000, 190 s.
7. Nuriyan Fərşad, Şərif Məhəmməd. Planın daha geniş hazırlanması prosesinə baxış. Araşdırma və planlaşdırma şirкəti, 2004, 380 s.
8. Rəcayi Əbdülhəmid. Eкoloji idarəetmə və məsкənseçmədə geomorfologiya. Tehran: 1995, 270 s.
9. Şərqi Azərbaycan ostanının layihələşdirmə və idarəetmə təşкilatı. Təbriz şəhristanının görüntüsü, 2005, 100 s.
10. Şərqi Azərbaycan ostanının proqramlaşdırma və idarəetmə təşкilatı, 2005 100 s.

## ОЦЕНКА ФАКТОРОВ, ВЛИЯЮЩИХ НА ФОРМИРОВАНИЕ ТЕБРИЗСКОЙ АГЛОМЕРАЦИИ

**В.А.ЭФЕНДИЕВ, Е.ХАДЖИПУР**

**РЕЗЮМЕ**

В своем развитии города представляют собой паутину. Факторы, способствующие этому создают агломерации. Участвующие в формировании агломераций различные факторы имеют разные уровни воздействия и направленность. Абсолютное большинство этих факторов наблюдаются во всех городах мира. Эти отмеченные факторы называются стабильными (общими). Другие специфические факторы, влияющие на формирование некоторых городов в зависимости от местных условий, называются меняющиеся (особые) факторы.

## EVALUATION OF FACTORS INFLUENCING THE DEVELOPMENT OF TEBRIZ AGGLOMERATION

**V.A.EFENDIYEV, E.HAJIPUR**

**SUMMARY**

Towns in their development represent cobwebs. Factors facilitating it create agglomerations. A number of factors affecting the development of agglomerations, have several levels of influence and direction.

Absolute majority of these factors are observed in all cities of the world. These factors are named stable (common). Other specific factors that have influence on development of cities depending on local conditions are named exchanging (special) factors.